# Türkiyənin ən ucqar kəndlərindən birinə Azərbaycandan 600 kitab hədiyyə edilib

Mahmud Kaşqari adına Beynəlxalq Fond tərəfindən Türkiyənin Tokat vilayətinin Rəşadiye rayonunda açılan kitabxanaya 600 nəşr hədiyyə edilib. Fondun prezidenti, Milli Məclisin deputatı Cavanşir Feyziyevin dəstəyi, eləcə də türkiyəli yazıçı-ədəbiyyatşünas, rəssam Selvigül Şahinin vasitəçiliyi ilə hədiyyə olunan kitablar Reşadiyenin ən ucqar kəndlərindən olan Demircilidə oxuculara təqdim edilib.



AZƏRTAC xəbər verir ki, 30 Avqust Zəfər Bayramı münasibətilə açılan, Demircili Bələdiyyəsinin nəzdində fəliyyət göstərəcək kitabxanaya hədiyyə edilən nəşrlər arasında Azərbaycan və ümumtürk ədəbiyyatı, mədəniyyəti, dili və tarixini əhatə edən nümunələr, eləcə də dünya ədəbiyyatı, bədii oxu materialları, riyazi biliklər və məntiqi zəkanı inkişaf etdirən kitablar yer alır.

Açılış mərasimində Demircili Bələdiyyəsinin sədri Mustafa Şahin çıxış edərək bu kitabxananın rayonun mədəni-maarif həyatına önəmli töhfə verəcəyini bildirib. Çıxışında nəqliyyat vasitələrinin belə çətinliklə hərəkət etdiyi, yüksək dağlıq ərazidə yaşayan həmvətənləri üçün kitabxana qurmaq təşəbbüsünə yaxından kömək göstərənlərə minnətdarlığını bildirən Selvigül Şahin bu işdə böyük dəstəyi olan qardaş Azərbaycan ziyalılarına təşəkkürünü ifadə edib. Çıxışlarda bildirilib ki, Mahmud Kaşqari adına Beynəlxalq Fond tərəfindən hədiyyə edilən nəşrlər arasında "Azərbaycandan Analoduya axan türkcə", "Türkiyəni yoğuranlar", "Türk xalqları ədəbiyyatı" kimi kitabların olması özü də "Bir millət, iki dövlət" kəlamının bariz nümunəsidir və kitabxana otaqlarından biri Azərbaycana həsr edilib.

Azərbaycan. - 2025.- 2 sentyabr (№169).- S.11.